**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

# Tipoloji dilçilik

# fənni üzrə proqram

**Magistratura təhsil pilləsi**

**İxtisas: 060201 “Dilşünaslıq (Ümumi dilçilik)”**

**Bakı - 2017**

**Proqram Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasında tərtib edilmişdir**


**Tərtibçi:** **dos.Ş.V.Qasımova**

**Məsul redaktor:** **prof. Ə.Ə.Rəcəbli**

**Rəyçilər:** **dos. M.T.Məmmədov**
**dos. C.X.Muradov**

# Annotasiya

Qarşıda hələ öz tam həllini tapmamış problem olaraq qalan Dünya dillərinin müxtəlifliyinin xüsusiyətlərini tədqiq etmək işi ilə əlaqədar bu sahədə çalışan və müəyyən nəaliyyətlər əldə etmiş müxtəlif ölkələrin alimlərinin kəşfləri, tədqiqatları ilə tələbələri tanış etmək və dilçilik elminin daha dərin qatlarının öyrənilməsinə nail olmaqdır.

Fənn metodik cəhətdən də çox əhəmiyyətlidir. Tiploji dilçilik fənni dünyada mövcud olan dil tiplərinin xüsusiyyətlərini və bu sahədə ayrı-ayrl dilçilərin bölgüləri ilə tələbələri tanış etməkdir.

# KURSUN STRUKTURU VƏ MƏZMUNU

Fənn II kursda I semestrdə keçirilir və 45 saatdan ibarətdir (onlardan 30 saat – mühazirə, 15 saat – seminardır).

## Tipoloji tədqiqatların tarixi, ilk nümayəndələri

A.Şlegel və F.Şlegel qardaşlarının dil tiplərinin müəyyənləşdirilməsindəki nailiyyətləri haqqında. F.Şlegelin dillərin tipoloji təsnifini ilk dəfəqeyd edən alim kimi öyrənilməsi. Dünya dillərinin iki böyük qrupa bölməsi haqqında: 1) şəkilçili 2) fleksiyalı dillər haqqında

## A.Şleyxerin tipoloji tədqiqat sahəsində fəaliyyəti

A.Şleyxerin təsnifinin başqa dillərdən fərqləndirən xüsusiyyətləri, bir sıra fərqli cəhətləri təfsilatı izahı haqqında. F. Bopp, H. Şteyntal, Müller və b. dilçilərin tipoloji tədqiqatı haqqında ümumi məlumat, və bu nəzəriyyələrin oxşar və fərqli cəhətlərinin təhlili. A.Şleyxerin naturalist görüşləri və dillərin bölgüsündə naturalizmin prinsiplərinə əsaslanması.

## XX əsrdə linqvistik tipoloji tədqiqatlar

Bu dövr tipoloji tədqiqatlar F.N. Fin, alman dilçisi və E.Səpirin Amerika dilçisinin adı ilə bağlıdır. Bu dilçinin üstünlüyü təsnifatının çevikliyidir. O, 8 dil tipi olduğunu qeyd etmişdir.

## Müasir tipoloji tədqiqatlar

Q. Melnikov, V. Uspenski, V. Skalivka, və başqa tədqiqatçılar tədqiqatda xüsusi tiplər, təbii dilin xarakterini açır və s. Dil strukturu və universalilər barədə, ehtimal və struktur təsnifat, Melnikovun determinativ təsnifatı (determinativ təsnifata görə dilləri 4 qrupa bölürdü) bu dövrun tipoloji tədqiqatlarının özəyini təşkil edir.

## Müasir dövrdə tipoloji dilçilik və nümayəndələri.

A.Martine, C.Qrinberq, İ.Meşşaninov, Y.Rojdestvenskinin, İ.Melçuk və digər tədqiqatçıların tip haqqında tədqiqatları ilə tanış olmaq. Müasir tiploji tədqiqatlarda dilin quruluşuna və iyerarxiyasına verilən önəm və dil universaliləri xüsusi qeyd edilməlidir.

## Dillərin morfoloji təsnifi

Morfoloji təsnifin əsas xüsusiyyəti kimi morfemlərin xarakteri və morfemlərin sözdə birləşməsi əsasında bu tədqiqatın üstünlüyü

məsələlərindən danışılır. V.Şlegelin, V.Humboldtun ilk tədqiqatlarının əhəmiyyətindən bəhs olunur.

## **Flektiv dil tipi**.

Bu mövzuda Hind-Avropa dillərinə məxsus olan flektiv quruluşlu dillərin morfoloji xüsusiyyətlərindən bəhs edilir. Bu qrupa daxil olan dillər arasında da fərqli və oxşar cəhətlər təhlil olunur. Belə dillər daha kamil dillər hesab olunur.

## **Dil universaliləri.**

Dil tiplərinin tədqiqində əsas meyar kimi universalilərə isnad olunur. Antik dövrdə də tədqiqatçılar cümlə üzvlərini universali hadisəsi kimi öyrənmişlər. XIX əsrdən dilləri fərqləndirən yox, onları birləşdirən cəhətlər öyrənilibdir. Bu sahədə məşhur tədqiqatçılar omuşdur və dəyərli tədqiqatlar məlumdur.

## Ədəbiyyat:

1. Rəcəbli Ə.Ə. Tipoloji dilçilik.

2. Axundov A.A. Ümumi dilçilik. Bakı, 1979

3. M.Adilov. İzahlı dilçilik terminləri. Bakı, 1989.

4. A.Qurbanov. Ümumi dilçilik. Bakı, 2004

5. Adilov M. Dilçilik problemləri. Bakı, 1982

6. Rəcəbli Ə.Ə. Universalilər dilçiliyi. Bakı, 2011

7. Axundov A.A. Riyazi dilçilik. Bakı

8. Ə.Rəcəbli. Dilçilik tarixi. Bakı, 1987

9. Qurbanov A. Ümumi dilçilik. Bakı, 1993.

10. А.Махмудов, А.Гулиев, Р.Кербалаева. Сравнительная грамматика русского и азербайджанского языков. Баку, 1982

11. Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. Dilçilik problemləri. Bakı, 1982

12. Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. İzahlı dilçilik terminləri. Bakı, 1989.